Gündəlik ictimai-siyasi qəzet

# Xalq qəzeti

№ 247 (30075) 13 noyabr 2022-ci il, bazar

1919-cu ildən nəşr edilir

Veb-sayt: www.xalqqazeti.com

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Həmrəylik və bütövlük ideyasında varislik

## *Prezident İlham Əliyevin Səmərqənd mesajlarına sözardı*




**Azərbaycanlıların birlik və bütövlük nəzəriyyəsinin əsasını qoyan, bu düşüncə tərzini və təfəkkürü yaddaşlara həkk edən odur – ulu öndər Heydər Əliyev. Azərbaycan Prezidenti cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi, mövcud istiqamətdə də Heydər Əliyev siyasi kursuna sadiqliyini göstərir. Nəinki göstərir, onun fəaliyyəti ilə ümummilli liderin irəli sürdüyü məfkurə nəzəriyyədən, arzuların yaşadılaraq gələcək nəslə ötürülməsi istəyindən çıxır, reallıq yoluna qədəm qoyur.**

Prezident İlham Əliyevin noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə səsləndirdiyi fikirlər bunu deməyə əsas verir: “Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirir. Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi Vətənləri ilə əlaqələrin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik”.

***

Bəli, Vətən təəssübünün yaşadıldığı, birlik və həmrəylik ruhunun, bütövləşmənin içdən gələn duyğu şəklində ədəbiyyatımıza, mədəniyyətimizə, mənəviyyat dünyamıza ötürüldüyü bütün ellər Azərbaycandır. Prezident İlham Əliyevin varislik ənənəsinə sadiqliklə dilə gətirdiyi fikirlərə də hopub böyük Azərbaycan sevdası. O sevda ki, Vətənimizə sərhədlərin mane ola bilmədiyi müqəddəs məmləkət obrazı qazandırır! Bu obrazda ədalət də var, haqq da, həqiqət də. O həqiqət ki, həmişə kimlərisə, hansısa qüvvələrisə narahat edir. O haqq ki, onun hər anını ülvi hisslərlə xatırlayanların köksünə, könlünə hakim kəsilmiş qürur və fəxarət var. O ədalət gələcəyə baxışımızı dolğunlaşdırmaq naminə keçmişimizə boylanmağı diktə edir. Biz birlik və həmrəyliyimizin çıxış nöqtəsini görmək arzusu ilə çox da uzaq olmayan keçmişimizə – 1989-cu ilə böyük iftixar hissilə boylanırıq. Bir-birinə qovuşmaq həsrətilə yanıb-yaxılan əllərin sərhədlərin tikanlı məftillərini söküb atdığı ilə.

1989-cu ilin dekabrında SSRİ və İran sərhədinin sökülməsidir həmrəyliyimizin təntənə anı. Bu ana dəyər verilməsinin rəmzi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli qərarı idi. Ali Məclisin Sədri Heydər Əliyev həmin gün bu qərarla iki il öncə yaşanmış duyğunun tariximizdə özünə əbədi yer tapması istiqamətində son dərəcə böyük tarixi addım atdı. Altı bənddən ibarət olan sənəddə 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan olunması, hər il qeyd edilməsi, bununla bağlı müxtəlif tədbirlərin təşkili vurğulanmış, həmçinin muxtar respublikadakı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilmişdi. Qərarın ən mühüm cəhəti bu idi ki, orada 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi, yalnız Naxçıvanda deyil, vətənimizin hər yerində qeyd edilməsi üçün, Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırmaq nəzərdə tutulurdu. Eyni zamanda, sərhəd çəpərlərinin bərpası qanunsuz sayılır, istehkam qurğularının ləğvini həyata keçirmək məqsədilə deputat komissiyasının yaradılması nəzərdə tutulurdu.

Heydər Əliyevin azərbaycançılıq ideologiyasının, dünya azərbaycanlılarının vəhdət təşəbbüsünün təntənəsi sayılan qərarı 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikasının Ali Sovetinin Milli Şurası tərəfindən də qəbul olundu. Bu, 31 dekabr tarixinin ölkəmizdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsinin rəsmiləşməsi idi.

**(ardı 4-cü səhifədə)**

# Həmrəylik və bütövlük ideyasında varislik

**(əvvəli 1-ci səhifədə)**

Prezident Heydər Əliyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərinin birində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".

***

Prezident İlham Əliyev Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bildirdi ki, "Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur".

Vətənimizi gözü götürməyən qüvvələrin –teokratların, klerikalların, Azərbaycanı dini fundamentalizmin yuvasına çevirmək niyyəti güdənlərin bağrına xəncər kimi sancılmış bu fikirdə tariximizə, millətimizə sahiblik iradəsi var. Dövlət başçımızın Heydər Əliyev şəxsiyyətinin birlik və bütövlük əzmindən rəvac alan bu fikrində, eyni zamanda, Əziz Əliyevin tarixə "Cənub missiyası" kimi düşmüş əvəzsiz fəaliyyətinin ruhu, ustad jurnalist, böyük ziyalı Nəsir İmanquliyevin vətənpərvərliyi və mərdliyi var. Bu fikir, həmçinin Əli bəy Hüseynzadənin turançılıq məfkurəsi, Mirzə İbrahimovun, Süleyman Sani Axundovun və digər xalq təəssübkeşlərinin bütöv Vətən nisgilli narahat ruhlarına dərin ehtiram nümunəsidir.

Prezident İlham Əliyev Səmərqənddəki ali görüşdə onu da bildirdi ki, dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil almaları daim Türk Dövlətləri Təşkilatının gündəliyində olmalıdır. Dövlətimizin başçısı çıxışında mövcud istiqamətdə lazımi addımlar atılmasının zəruriliyini də dilə gətirdi.

Göründüyü kimi, cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi xəttə daha qlobal motiv qazandırır. O, dünya azərbaycanlılarının hüquq və vəzifələrinin təminatı məsələsinə bütövlükdə türk dünyası müstəvisindən yanaşır. Ən əsası isə artıq ali ideya və prinsiplərin gerçəkləşməsi üçün zəmin – Türk Dövlətləri Təşkilatı var. O təşkilat ki, Azərbaycan orada cənab İlham Əliyevin möhkəm iradəsi, qətiyyəti ilə təmsil olunur. Ölkəmiz bu platformanın səfərbəredici missiya daşıyan mənbəyidir. İdeyaları, arzuları reallığa çevirəcək böyük mərkəzin hərəkətverici qüvvəsidir Vətənimiz Azərbaycan!

**Ə.CAHANGİROĞLU,**
**"Xalq qəzeti"**